Oktyabrın 21-də Respublika Elmi Pedaqoji Kitabxanasının 25 illiyi münasibətilə tədbir keçirilib. İlk əvvəl iştirakçılar kitabxana ilə tanış olub.

Sonra tədbiri açan Respublika Elmi Pedaqoji Kitabxanasının direktoru Tamilla İsmixanova görülən işlər barədə məlumat verib, problemləri diqqətə çatdırıb.

Təhsil naziri Misir Mərdanov tədbirdə çıxış edərək bildirib ki, təhsil sahəsində kitabxanaların rolu əvəzsizdir. Nazir qeyd edib ki, ölkəmizin təhsil müəssisələrində kitab və dövri ədəbiyyat fondlarına malik olan kitabxanalar fəaliyyət göstərir ki, onların bir qismi yeni yaradılıb və müasir informasiya - kommunikasiya texnologiyaları ilə təchiz olunub.

Misir Mərdanov kitabxana işinin təşkili, maddi texniki bazanın möhkəmlənməsi sahəsində müəyyən çətinliklərə də toxunaraq vurğulayıb ki, bu sahədəki çatışmamazlıqlar dövlətimizin diqqət mərkəzindədir.

Sonda Misir Mərdanov kitabxananın bir qrup əməkdaşına Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı və Fəxri Fərmanını təqdim edib.